**F.Ş.Cəfərova**
**AMEA İqtisadiyyat İnstitutu**
**“Demoqrafiya və məşğulluq problemləri” şöbəsi, b.e.i.**
**UOT:314.17:331.5 JEL: J12; J16.**

# Gənc əmək ehtiyatlarının səmərəli məşğulluğunun təmin edilməsinin sosial-demoqrafik aspektləri

***Xülasə***

*Məqalədə son on il ərzində (2010-2020-ci illərdə) Azərbaycan Respublikasında cins-yaş tərkibi üzrə gənclərin (15-29 yaşda) məşğulluq və işsizlik səviyyəsində baş vermiş dəyişikliklər və onlara təsir edən amillər təhlil edilib qiymətləndirilmişdir. Gələcəkdə onların səmərəli məşğulluğun təmin edilməsinin sosial-demoqrafik aspektlərinə dair təklif və tövsiyələr verilmişdir.*

***Açar sözlər:*** *əhali, iqtisadi fəal əhali, iqtisadi qeyri-fəal əhali, məşğulluq, işsizlik, əhalinin cins-yaş quruluşu, peşə təhsili, ali təhsil, orta ixtisas təhsili.*

## Giriş

Müasir mərhələdə ölkə iqtisadiyyatının dinamik inkişafını təmin edən ən başlıca amillərdən biri burada mövcud olan əmək ehtiyatlarının ictimai istehsala cəlb edilməsi və onların əməyindən səmərəli istifadə edilməsindən ibarətdir. Nəzərə alsaq ki hazırda respublikamızda mövcud olan iqtisadi fəal əhalinin 26,2 faizi, işsiz əhalinin isə 41faizi gənclərin (15-29 yaşda) payına düşür, onda ölkəmizdə iqtisadi fəal əhalinin səmərəli məşğulluğunun təmin edilməsi gənclərin səmərəli məşğulluğunu təmin etmədən mümkün deyildir. Buna görə də hazırda respublikamızda gənclərin əməyindən səmərəli istifadə edilməsi yollarının araşdırılması aktual problem kimi diqqəti cəlb edir və öz həllini gözləyir.

## Azərbaycan Respublikasında gənclərin cins-yaş tərkibi üzrə məşğulluq və işsizlik səviyyəsinin təhlili və qiymətləndirilməsi

Son onilliklər ərzində ölkəmizin sürətli sosial-iqtisadi inkişafı və burada həyata keçirilmiş uğurlu sosial-iqtisadi islahatlar ölkəmizdə yaşayan iqtisadi fəal əhalinin və onun ən fəal hissəsini təşkil edən gənclərin məşğulluq və deməli həm də işsizlik səviyyəsinə təsirsiz qalmamışdır. Ümumiyyətlə götürüldükdə isə hər bir ölkənin əhalisi ictimai və iqtisadi fəallığı baxımından iki yerə: iqtisadi fəal və qeyri-fəal əhaliyə bölünür. İqtisadi fəal əhali (iş qüvvəsi) dedikdə - ölkə iqtisadiyyatında məşğul olan və işsiz əhali, iqtisadi qeyri-fəal əhali dedikdə isə 15 və yuxarı yaşda məşğul olmayan və müəyyən dövr ərzində iş axtarmayan şəxslər başa düşülür. Rəsmi Statistik Məlumatlara əsasən 2020-ci ildə ölkəmizdə yaşamış 10093,1 min nəfər əhalinin 5252,5 min nəfərini və ya 51 faizini iqtisadi fəal əhali təşkil etmişdir. Həmin əhalinin isə 2685 min nəfəri və ya 51,1 faiz kişilərin; 2567,5 min nəfəri və ya 48,9 faizi isə qadınların payına düşmüşdür (1, səh. 16, 22). Cəmi iqtisadi fəal əhalinin 1378 min nəfərini və ya təqribən 26,2 faizini 15-29 yaşda olan gənclər, o cümlədən 731,5 min nəfərini və ya 53,1 faizini kişilər, 646,5 min nəfərini və ya 46,9 faizini isə qadınlar təşkil etmişlər (1. səh. 133). Bu isə onu deməyə əsas verir ki, hazırda ölkəmizdə iqtisadi fəal əhalinin səmərəli məşğulluğunun təmin edilməsi xeyli dərəcədə də burada mövcud olan 15-29 yaşda əmək qabiliyyətli gənclərin əməyindən necə istifadə edilməsindən asılıdır. Həmin gənclərin əməyindən necə istifadə edilməsi vəziyyətinə keçməzdən əvvəl ilk növbədə son 10 il ərzində (2010-2020-ci illər) ölkəmizdə yaşamış 15-29 yaşda gənclərin sayında və onların cins quruluşunda baş vermiş dəyişikliklərə nəzər salmaq lazımdır. Qeyd edilən dövrdə ölkəmizdə yaşamış 15-29 yaşda olan iqtisadi fəal gənclərin sayı 111,0 faiz artaraq 1241,3 min nəfərdən 1378,0 min nəfərə, o cümlədən kişilərin sayı 138,3 faiz artaraq 529,0 min nəfərdən 731,5 min nəfərə qalxmış, qadınların sayı isə əksinə 9,3 faiz azalaraq 712,8 min nəfərdən 646,5 min nəfərə düşmüşdür. Burada diqqəti çəkən əsas cəhət isə ondan ibarətdir ki, ayrı-ayrı yaş qruplarına daxil olan kişi və qadınlar arasında

bu dəyişikliklər özünü xeyli fərqli surətdə büruzə vermişdir. Belə ki, əgər qeyd edilən dövrdə 15-19 yaşda olan gənclərin sayı 23,9 faiz azalaraq 131,4 min nəfərdən 107,6 min nəfərə düşmüş, kişilərin sayı isə 123,6 faiz artaraq 48,2 min nəfərdən 59,6 min nəfərə qalxmışdırsa, əksinə həmin yaşda olan qadınların sayı 42,3 faiz azalaraq 83,2 min nəfərdən 48,0 min nəfərə düşmüşdür. Bu illər ərzində 20-24 yaşda olan gənclərin sayı 105,2 faiz artaraq 476,3 min nəfərdən 500,9 min nəfərə, o cümlədən kişilərin sayı 144,6 faiz artaraq 184,5 min nəfərdən 266,7 min nəfərə qalxdığı halda, qadınların sayı əksinə 19,7 faiz azalaraq 291,8 min nəfərdən 234,2 min nəfərə yenmişdir. Ancaq 25-29 yaş qruplarına daxil olan iqtisadi fəal gənclərin sayı 121,4 faiz artaraq 634,1 min nəfərdən 769,5 min nəfərə, o cümlədən kişilərin sayı 136,7 faiz artaraq 296,3 min nəfərdən 405,2 min nəfərə, qadınların sayı isə cəmi 107,8 faiz artaraq 337,9 min nəfərdən 364,3 min nəfərə qalxmışdır. Bu dəyişikliklər qeyd edilən dövrdə 15-29 yaş qrupuna daxil olanlar arasında qadınların xüsusi çəkisi 10,5 faiz bənd azalaraq 57,4 faizdən 46,9 faizə, o cümlədən 15-19 yaşda olanlar arasında 18,7 faiz bənd; 20-24 yaş qrupuna daxil olanlar arasında 14,6 faiz bənd; 25-29 yaş qrupuna daxil olanlar arasında isə 6 faiz bənd azalaraq müvafiq surətdə 63,3 faizdən 44,6 faizə; 61,3 faizdən 46,7 faizə və 53,3 faizdən 47,3 faizə düşmüşdür. Bu vəziyyət həmin yaş qruplarına daxil olanların, o cümlədən də kişi və qadınların yaş quruluşunda da özünü göstərmişdir. 1-ci cədvəlin məlumatlarından görünür ki, əgər 2010-cu ildə respublikamızda mövcud olmuş 15-29 yaşda gənclərin 10,6 faizini, o cümlədən kişilərin 9,1 faizini, qadınların 11,7 faizini, 15-19 yaşda olanlar; müvafiq surətdə 38,4; 34,9 və 40,9 faizini 20-24 yaşda olanlar; 51,0; 56,0 və 47,4 faizini isə 25-29 yaşda olanlar təşkil etmişdirsə, 2020-ci ildə bu göstəricilər xeyli fərqli olmuşdur. Belə ki, 2020-ci ildə 15-19 yaşda olanların 8,1 faizi 15-19; 36,4 faizi 20-24; 55,8 faizi isə 25-29 yaşda olanların payına düşmüşdürsə, kişilər üzrə bu göstərici müvafiq yaş qrupları üzrə 8,1; 36,5 və 55,4 faiz, qadınlar üzrə isə 7,4; 36,2 və 56,4 faiz təşkil etmişdir.

Tədqiq edilən dövrdə 15-19 və 20-24 yaşda olan gənc qadınların sayının xeyli azalması; 25-29 yaşda olan qadınların sayının isə həmin yaşda olan kişilərin sayının artmasına nisbətən əhəmiyyətli dərəcədə geridə qalmasının ən mühüm səbəblərindən biri keçən əsrin 90-cı illərindən başlayaraq ölkəmizdə diri doğulan uşaqlar arasında qızların xüsusi çəkisinin azalması ilə, bu isə öz növbəsində texniki vasitələrin köməkliyi ilə ana bətnində olan uşaqların cinsinin müəyyənləşdirilməsinə nail olub süni yollarla qız uşaqlarının doğulmasının qarşısının alınmasından ibarət olmuşdur. Bunu ondan görmək olar ki, 1991-ci ildə respublikamızda diri doğulmuş 190,4 min nəfər uşağın 92,5 min nəfərini və ya 48,6 faizini qızlar təşkil etmişdirsə, 2020-ci ildə diri doğulmuş, 126,6 min nəfərin 59,2 min nəfəri və ya 46,8 faizi qızların payına düşmüş və ya diri doğulan uşaqlar arasında qız uşaqlarının xüsusi çəkisi 1,8 faiz bənd azalmışdır (3. səh. 108, 114). Halbuki, qanunauyğun hal olaraq, diri doğulan hər 100 qız uşağına 105-106 nəfər oğlan uşağı doğulmalı olduğu halda, respublikamızda onların sayı təqribən 7-9 faiz artaraq 1959-1990-cı illərdəki 104,1-106,6 nəfərdən 2020-ci ildə 114 nəfərə qalxmışdır (3. səh. 108, 114). Əlbəttə, bu prosesin qarşısı qanunvericilik və ya ictimai qınaq yolu ilə alınmasa və uzun müddət belə davam edərsə gələcəkdə ölkə əhalisinin cins-yaş quruluşu ciddi deformasiyaya uğraya bilər ki, bu da son dərəcə ağır nəticələri olan demoqrafik çətinliklərin yaranmasına gətirib çıxara bilər.

Ölkəmizdə mövcud olan 15-29 yaşda iqtisadi fəal gənclərin cins yaş quruluşu üzrə məşğulluq səviyyəsində baş vermiş dəyişikliklərə gəldikdə isə bunu aşağıdakı 2-ci cədvəlin məlumatlarından daha aydın görmək olar. 2010-2020-ci illəri əhatə edən 10 il ərzində respublikamızda mövcud olmuş cəmi iqtisadi fəal əhalinin məşğulluq səviyyəsi 1,6 faiz bənd azalaraq 94,4 faizdən 92,8 faizə, o cümlədən kişilər üzrə 1,6 faiz bənd azalaraq 95,6 faizdən 94,0 faizə; qadınlar üzrə isə 1,5 faiz bənd azalaraq 93,1 faizdən 91,6 faizə düşdüyü halda; 15-29 yaşda olan iqtisadi fəal gənclərin məşğulluq səviyyəsi 0,2 faiz bənd azalaraq 89,0 faizdən 88,8 faizə

düşmüş, o cümlədən kişilər üzrə 1,5 faiz bənd artaraq 88,9 faizdən 90,4 faizə qalxmış, qadınlar üzrə isə 2,1 faiz bənd azalaraq 89,1 faizdən 87,0 faizə düşmüşdür. Ayrı-ayrı yaş qruplarından olan iqtisadi fəal gənclər arasında isə bu göstəricilərlə xeyli fərqli olmaqla özünü büruzə vermişdir. Belə ki, əgər qeyd edilən dövrdə 15-19 yaşda olan gənclər arasında məşğulluq səviyyəsi 7,0 faiz bənd artaraq 77,6 faizdən 84,6 faizə qalxmışdırsa, bu göstərici həmin yaşda olan kişilər arasında 9,6 faiz bənd artaraq 76,1 faizdən 85,7 faizə; qadınlar arasında isə 4,6 faiz bənd artaraq 78,5 faizdən 83,1 faizə yüksəlmişdir. Bu göstəricinin səviyyəsi 20-24 yaşda olan gənclər arasında 2,2 faiz bənd azalaraq 87,2 faizdən 85,3 faizə düşmüş, o cümlədən kişilər arasında 2,7 faiz bənd artaraq 84,4 faizdən 87,1 faizə qalxmış, qadınlar arasında isə əksinə 6,8 faiz azalaraq 88,9 faizdən 82,6 faizə düşmüşdür. 25-29 yaş qruplarına daxil olan iqtisadi fəal gənclərin məşğulluq səviyyəsi isə həmin illərdə 0,8 faiz azalaraq 92,7 faizdən 91,9 faizə, o cümlədən qadınlar arasında 1,5 faiz azalaraq 91,8 faizdən 90,3 faizə, kişilər arasında isə 0,5 faiz bənd azalaraq 93,8 faizdən 90,3 faizə düşmüşdür. 2010-2020-ci illərdə respublikamızda mövcud olmuş 15-29 yaş qruplarına daxil olan gənclərin işsizlik səviyyəsi və quruluşunda baş vermiş dəyişikliklər də müşahidə olunmuşdur. Tədqiq edilən dövrdə respublikamızda cəmi iqtisadi fəal əhalinin işsizlik səviyyəsi 1,6 faiz bənd artaraq 5,6 faizdən 7,2 faizə, o cümlədən kişilər üzrə 1,6 faiz bənd artaraq 4,4 faizdən 6 faizə, qadınlar üzrə isə 1,6 faiz bənd artaraq 6,9 faizdən 8,5 faizə qalxmasına rəğmən 15-29 yaşda olan iqtisadi fəal gənclər arasında bu göstəricinin səviyyəsi 0,2 faiz bənd artaraq 11,0 faizdən 11,1 faizə, o cümlədən qadınlar arasında 2,6 faiz bənd artaraq 10,4 faizdən 13,0 faizə qalxmış; kişilər arasında isə 1,5 faiz bənd azalaraq 11,1 faizdən 9,6 faizə düşmüşdür. Bu göstəricilər 15-19 yaşda olanlar arasında 7,0 faiz bənd azalaraq 22,4 faizdən 15,4 faizə; o cümlədən kişilər arasında 9,5 faiz bənd azalaraq 23,9 faizdən 14,4 faizə; qadınlar arasında 4,6 faiz bənd azalaraq 21,5 faizdən 16,9 faizə; müvafiq surətdə 20-29 yaşda olanlar arasında cəmi 2,2 faiz bənd artaraq 12,8 faizdən 15,0 faizə; o cümlədən kişilər arasında 2,6 faiz bənd azalaraq 15,6 faizdən 13 faizə düşmüş, qadınlar arasında isə əksinə 6,3 faiz bənd artaraq 11,1 faizdən 17,4 faizə yüksəlmişdir. 25-29 yaşında iqtisadi fəal gənclər arasında isə işsizlik səviyyəsi 0,8 faiz bənd artaraq 7,3 faizdən 8,1 faizə; o cümlədən kişilər arasında 0,5 faiz bənd azalaraq 6,2 faizdən 6,7 faizə; qadınlar arasında isə 1,5 faiz bənd artaraq 8,2 faizdən 9,7 faizə qalxmışdır. 2010-cu ildə ölkə üzrə bütün işsizlərin 60,4 faizi, o cümlədən 15-29 yaşda olan gənclərin 57,1 faizi, 20-29 yaşda olanların 53,1; 25-29 yaşda olanların isə 60,0 faizi qadınların payına düşmüşdürsə, 2020-ci ildə bu göstəricinin səviyyəsi müvafiq surətdə 57,5; 54,6; 48,8; 59,2 və 56,7 faiz təşkil etmişdir. 2010-cu ildə Respublikamızda mövcud olmuş işsizlərin 52,9 faizi, o cümlədən işsiz kişilərin 57,3; işsiz qadınların isə 50,0 faizi 15-29 yaşda gənclərin payına düşmüşdürsə, 2020-ci ildə bu göstəricinin səviyyəsi xeyli azalaraq müvafiq surətdə 41,0; 46,1 və 39,0 faiz təşkil etmişdir. 4-cü cədvəldəki məlumatlardan göründüyü kimi 2010-2020-ci illərdə ölkə üzrə işsizlərin sayı 145,5 faiz artaraq 258,3 min nəfərdən 375,9 min nəfərə, o cümlədən işsiz qadınların sayı 138,8 faiz artaraq 156,1 min nəfərdən 216,0 min nəfərə; işsiz kişilərin sayı isə 156,3 faiz artaraq 102,3 min nəfərdən 159,9 min nəfərə qalxmasına rəğmən bu göstəricilərin səviyyəsi həm cəmi 15-29 yaşda olan gənclər və həm də həmin yaş qruplarına daxil olan 15-19; 20-24 və 25-29 yaşda olanlar üzrə xeyli fərqli olmuşdur. Belə ki, müqayisə edilən dövrdə respublikamızda mövcud olmuş 15-29 yaşda işsiz gənclərin sayı 112,8 faiz artaraq 136,6 min nəfərdən 154,1 min nəfərə, o cümlədən kişilərin sayı 119,3 faiz artaraq 58,6 min nəfərdən 69,9 min nəfərə, qadınların sayı isə 108,0 faiz artaraq 78 min nəfərdən 84,2 min nəfərə qalxmış və bu artım bütün yaş qruplarında özünü büruzə vermişdir. 2010-cu ildə 15-29 yaşda olan cəmi işsizlərin 21,5 faizini 15-19 yaşda; 44,8 faizini 20-29 yaşda; 33,7 faizini isə 25-29 yaşda olanlar; müvafiq surətdə kişilərin 19,6; 49,0 və 31,4; qadınların isə 23,0; 41,6 və 35,4 faizi qeyd edilən yaşda olanlar təşkil etmişlərsə, 2020-ci ildə 15-29 yaşda cəmi işsiz gənclərin 10,7 faizi 15-19 yaşda; 48,7 faizi 20-24 yaşda; 40,5

faizi 25-29 yaşda olanların; müvafiq surətdə kişilərin 12,2; 49,2 və 38,6 faizi; qadınların isə 9,6; 48,3 və 42,1 faizi həmin yaşlarda olanların payına düşmüşdür.

Tədqiq edilən dövrdə (2010-2020-ci illərdə) ölkəmizdə mövcud olan cəmi 15-29 yaşda iqtisadi fəal gənclərin sayının 111,0 faiz artmasına; o cümlədən 20-24 yaşda olanların sayının 18,1 faiz azalmasına; 25-29 yaşda olanların sayının 105,2 faiz artmasına; eyni zamanda 15-29 yaşda kişilərin sayının 138,3 faiz, o cümlədən 15-19 yaşda kişilərin 121,4 faiz; 20-24 yaşda kişilərin 144,0 faiz; 25-29 yaşda olan kişilərin sayının 136,8 faiz artmasına rəğmən; 15-29 yaşda olan qadınların sayının 9,3 faiz; o cümlədən 15-19 yaşda qadınların 42,3 faiz; 20-24 yaşda qadınların sayının 18,7 faiz azalması; 25-29 yaşda kişilərin sayının isə 136,7 faiz artmasına rəğmən həmin yaşda olan qadınların sayının cəmi 107,9 faiz artması bir sıra səbəblərlə bağlı olmuşdur. Bu səbəblərə hər şeydən əvvəl diri doğulan uşaqlar arasında qızların xüsusi çəkisinin azalması; 15-29 yaşda olan gənc qızların ailə qurması hallarının artması və onların doğum əmsalının yüksəlməsi; orta və ali ixtisas təhsil müəssisələrinə qəbul olunan və onlarda təhsil alanlar arasında qızların xüsusi çəkisinin xeyli çoxalması; iqtisadi fəal gənclərin arasında peşə-ixtisas, orta ixtisas və ali təhsil alanların xüsusi çəkisinin artmağa doğru meyl etməsi və sair amillər daxildir (3. səh. 369). Demoqrafik statistikanın məlumatlarına əsasən 2020-ci ildə respublikamızda nikahda olmuş 35,3 min qadının 20,9 mini və ya 59,2 faizi 18-24 yaşda olanların, o cümlədən 8,1 mini və ya 23,0 faizi 18-19 yaşda; 12,8 mini və ya 36,3 faizi 20-24 yaşda; 7,3 mini və ya 20,7 faizi isə 25-29 yaşda olanların payına düşmüşdür (3. səh. 370). 2000-2020-ci illəri əhatə edən dövrdə ölkəmizdə 15-19 yaşda qadınların doğum əmsalı isə (hər 1000 qadına düşən diri doğulmuş uşaqların sayı) 143,4 faiz artaraq 29 nəfərdən 41,6 nəfərə qalxmışdır (4. səh. 51). Bu illər ərzində (2001-2021-ci illərdə) ölkəmizin orta ixtisas təhsil məktəblərində təhsil almış qızların sayı 125,9 faiz artaraq 29759 nəfərdən 37452 nəfərə, ali təhsil müəssisələrində oxuyan qızların sayı isə 2,6 dəfə artaraq 49858 nəfərdən 97163 nəfərə gəlib çatmışdır (5. səh. 132-155). Rəsmi statistik məlumatlara əsasən orta ixtisas təhsili müəssisələrində oxuyan tələbələr arasında qızların xüsusi çəkisi 2000-ci ildə 69,8 faiz; 2020-ci ildə 62,4 faiz, ali məktəblərdə isə müvafiq surətdə 41,7 və 48,9 faiz təşkil etmişdir. Bu illər ərzində orta ixtisas məktəblərində təhsil alan oğlanların sayı qızlarla müqayisədə daha sürətlə, yəni 175,3 faiz artaraq 12853 nəfərdən 22532 nəfərə çatmışdır. Buna görə də 2000-ci ildə orta ixtisas məktəblərində təhsil alanlar arasında oğlanların xüsusi çəkisi artaraq 30,2 faizdən 37,5 faizə qalxmış; qızların xüsusi çəkisi isə 69,8 faizdən 62,4 faizə düşmüşdür. Ali təhsil müəssisələrində təhsil alan oğlanların sayı isə qızların sayına nisbətən zəif artaraq, yəni 145,4 faiz artaraq 69825 nəfərdən 101544 nəfərə gəlib çatmış və bu səbəbdən onların bütün tələbələr arasındakı xüsusi çəkiləri 7,2 faiz bənd azalaraq 58,3 faizdən 51,1 faizə düşmüşdür (5. səh. 129, 152, 132, 155).

İqtisadi fəal gənclərin (15-29 yaşda) məşğulluq səviyyəsinə təsir edən ən mühüm amillərdən biri də onların təhsil və peşə-ixtisas səviyyəsindən ibarətdir. Rəsmi statistik məlumatların əsasında müəyyən edilmişdir ki, hazırda ölkəmizdə mövcud olan iqtisadi fəal əhalinin cəmi 33,5 faizinin, o cümlədən qadınların 31,9 faizinin ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili olduğu halda, müvafiq surətdə 66,5 və 68,1 faizinin xüsusi ixtisas təhsili yoxdur. Bu göstəricinin səviyyəsi 15-29 yada olan gənclər arasında da xeyli fərqli olaraq özünü büruzə verir. Hazırda respublikamızda mövcud olan 15-29 yaşda iqtisadi fəal əhalinin cəmi 34,6 faizinin, o cümlədən qadınların 38,7 faizinin ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili olduğu halda, müvafiq surətdə 65,4 və 61,3 faizinin xüsusi ixtisas təhsili yoxdur. Bu özünü həmin yaş qrupuna daxil olan 15-19; 20-24 və 25-29 yaşda olanlar arasında da xeyli fərqli olaraq diqqəti cəlb edir. Həmin cədvəlin məlumatlarından o da aydın olur ki, 15-19 yaşda olan iqtisadi fəal gənclərin 91,8, o cümlədən qızların 89,8 faizinin; müvafiq surətdə 20-24 yaşda olanların 67,4 və 61,7; 25-29 yaşda olanların isə 61,2 və 58,3 faizinin xüsusi ixtisas təhsili yoxdur. Bunu 2020-ci ildə ölkəmizdə mövcud olmuş işsizlərin təhsil səviyyəsi və quruluşunu

özündə əks etdirən 6-cı cədvəlin məlumatları da təsdiq edir. Həmin cədvəlin məlumatlarından aydın olur ki, hazırda ölkəmizdə işsiz əhalinin 33,3 faizinin, o cümlədən 15-29 yaşda olan gənclərin 26,9 faizinin ali, orta ixtisas və ilkin peşə-ixtisas təhsili; müvafiq surətdə 66,7 və 73,1 faizinin isə heç bir xüsusi ixtisas və peşə təhsili yoxdur. Qeyd edilən dövrdə respublikamızda işsiz statusu almış 15-19 yaşda gənclərin 94,6; 20-24 yaşda olanların 74,4; 25-29 yaşda olanların isə 65,8 faizinin heç bir xüsusi ixtisas təhsili olmamışdır. Həmin işsiz 15-19 yaşda olanların 5,4 faizini ali, 3,0 faizini orta ixtisas təhsili olanlar təşkil etmişdir. 20-24 yaşda olan həmin gənclərin 10,5 faizini ali, 10,8 faizini orta ixtisas, 4,3 faizini isə peşə-ixtisas təhsili olanlar təşkil etmişlər. 25-29 yaşda olanlar üzrə isə bu göstəricilər müvafiq surətdə 13,5; 15,7 və 5,0 faiz təşkil etmişdir. Bütün bunlar həmin gənclərin iqtisadiyyat dairəsinə cəlb edilməsi imkanlarının nə səviyyədə olduğunu göstərir.

Ümumiyyətlə götürüldükdə, yuxarıda qeyd edilən göstəricilərdən aydın olur ki, ölkəmizdə mövcud olmuş həm cəmi işsizlərin və həm də qadınların tam əksəriyyəti, yəni müvafiq surətdə 65,4 və 61,3 faizi qeyri-mobil əhalidir. Daha doğrusu onların iş yerləri ilə təmin edilməsi çox çətindir və həmin şəxslərin xüsusi peşə və ixtisaslara yiyələnməsini tələb edir. Onu da qeyd etmək lazımdır ki, 2020-ci ilin rəsmi statistikasına əsasən ölkəmizdə işsizlik statusu almış 375,9 min nəfərin 216 min nəfərini və ya 57,5 faizini, o cümlədən 46,9 min nəfər ali təhsili olan işsizlərin 19,3 min nəfərini və ya 41,2 faizini; 49 min nəfər orta ixtisas təhsili olan işsizlərin 26,1 min nəfərini və ya 53,3 faizini; 29,3 min nəfər peşə təhsili olan işsizlərin 17,5 min nəfərini və ya 59,7 faizini; 191,3 min nəfər orta təhsili olan işsizlərin 123,7 min nəfərini və ya 64,7 faizini; 58,6 min nəfər ümumi orta təhsili olan işsizlərin 28,9 min nəfərini və ya 49,3 faizini və nəhayət 0,8 min nəfər ibtidai təhsili olan işsizlərin 0,5 min nəfərini və ya 62,5 faizini qadınlar təşkil etmişlər (1. səh.143). Nəzərə alsaq ki, 2010-2020-ci illəri əhatə edən 10 il ərzində respublikamızda əmək ehtiyatlarının sayı 619,3 min nəfər və ya təqribən (110,3) 9,2 faiz artaraq 6015 min nəfərdən 6634,2 min nəfərə, o cümlədən əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin sayı isə 548,2 min nəfər və ya 110,2 faiz artaraq 5875,7 min nəfərdən 6473,9 min nəfərə çatmasına rəğmən, ölkədəki işsizlərin sayı 117,6 min nəfər və ya 145,5 faiz artaraq 258,3 min nəfərdən 375,9 min nəfərə, o cümlədən işsiz qadınların sayı 62,3 min nəfər və ya 140,5 faiz artmışdır, onda onların məşğulluğunun təmin edilməsi vəziyyətinin nə qədər çətin olduğu aydın olar (1. səh. 20,22). Doğrudur, 2020-ci ildə ölkəmizin Dövlət Məşğulluq Agentliyi tərəfindən 103,0 min nəfərdən çox (103028 nəfər) adam işə düzəldilmişdir (1. səh. 121). Ancaq bu həmin ildə ölkəmizdə mövcud olan işsizlərin cəmi 27,4 faizinə bərabərdir. Qeyd edilən ildə peşə təliminə göndərilənlərin də sayı cəmi 3168 nəfər təşkil etmişdir ki, bu da 2010-cu ildəki 3921 nəfərin cəmi 80,8 faizinə bərabərdir (1. səh. 121). 2010-2020-ci illər ərzində boş iş yerlərinin tutulması üçün iş qüvvəsinə olan tələbat da 163 faiz artaraq 10654-dən 17360-a çatmışdır. Bu boş yerlərin sayını işsizlərin sayı ilə müqayisə etsək aydın olar ki, həmin boş yerlərin sayı işsizlər üçün tələb edilən iş yerlərinin cəmi 4,6 faizinə bərabərdir (1. səh. 121).

Burada onu da qeyd etmək lazımdır ki, əhalinin işsiz qalmasının əsas səbəbləri aşağıdakılardan ibarətdir. Bütün işsizlərin 40,5 faizi, o cümlədən kişilərin 40,4; qadınların 40,6 faizi kadr axıcılığı nəticəsində işdən azad olanların; müvafiq surətdə 9,8; 9,5 və 10,2 faizi struktur dəyişiklikləri ilə əlaqədar olaraq işdən azad olanların; 3,3; 5,2 və 0,1 faizi hərbi xidmətdən tərxis olunanların; 46,0; 44,3 və 49,1 faizini isə əmək fəaliyyətinə 1 ildən çox fasiləsi olanların və sair payına düşür (1. səh. 124). Qeyd edilən işə düzəldilənlərin isə xeyli bir qismi, yəni təqribən 12-13 faizi əmək qabiliyyətli yaşdan yuxarı olanların payına düşmüşdür. Onu da qeyd etmək lazımdır ki, 2020-ci ildə respublikamızın tam orta məktəblərini 79,4 min nəfər bitirmiş (5, səh. 90, 122, 127) və həmin ildə ilk peşə-ixtisas məktəblərinə qəbul edilənlərin sayı 17,1 min nəfər; orta ixtisas məktəblərinə qəbul edilənlərin sayı 19,2 min nəfər, ali məktəblərə qəbul olanların sayı isə 45,0 min nəfər təşkil etmişdir. 2020-ci ildə respublikamızın ilkin peşə-ixtisas, orta ixtisas və ali təhsil

müəssisələrini bitirmiş gənclərin sayı isə 69,1 min nəfər (o cümlədən ilkin peşə-ixtisas məktəblərini 14,0 min nəfər; orta ixtisas məktəblərini 14 min nəfər; ali məktəbləri isə 40,8 min nəfər) bitirmişdir. Bu isə o deməkdir ki, həmin məktəbləri bitirmişlərin mütləq əksəriyyətinin əmək bazarına üz tutmaq ehtimalı vardır və bu vəziyyət gənclər əmək bazarının nə qədər gərgin olduğundan xəbər verir. Respublikamızda aparılmış sorğu materiallarının nəticələri isə onu göstərir ki, "konkret olaraq hansı peşə və ixtisas sahiblərinə ehtiyacınız var?" sualına hər iki cinsdən olan ali və orta ixtisas və həm də ilk peşə-ixtisas təhsili olanlara tələbin olduğu cavabını verirlər. Yuxarıda qeyd edilən göstəricilərdən isə aydın olur ki, 2020-ci ildə 15-29 yaşda olan işsiz gənclərin cəmi 26,9 faizinin ali, orta ixtisas və ilk-peşə ixtisas təhsili olanlar, o cümlədən vur-tut 4,4 faizinin ilk peşə-ixtisas təhsili vardır (1. səh. 143). Bu isə o deməkdir ki, ölkədə fəaliyyət göstərən ilk peşə-ixtisas təhsili sistemində kadr hazırlığı həmin işəgötürənlərin tələblərinə uyğun gəlmir. 2021-ci ilin əvvəlinə olan rəsmi statistik məlumatlara əsasən ilk peşə-ixtisas təhsili müəssisələrində təhsil alanların sayı cəmi 22 min nəfər olmuşdur ki, bu da ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrində təhsil almış 276,7 min nəfərin təqribən 8 faizini təşkil etmişdir (5. səh. 121, 127, 132, 149, 155). Aparılan araşdırmaların nəticələri göstərir ki, hələlik peşə-ixtisas təhsili üzrə kadr hazırlığı əmək bazarının tələblərinə cavab vermir. Təsadüfi deyildir ki, ölkə başçısı İlham Əliyev cənabları, qeyd etmişdir ki: "Növbəti illərdə peşə hazırlığı Azərbaycanda geniş vüsət almalıdır və buna böyük ehtiyac var. Peşə məktəblərinin yaradılması prosesi gedir, daha da sürətlə getməlidir. Bu proses iqtisadiyyatın ümumi inkişafı ilə uzlaşmalıdır" (6). Ölkə prezidentinin 2016-cı il "6" dekabr tarixli fərmanına uyğun olaraq peşə təhsili və təliminin inkişafı respublikamızın 11 əsas prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair strateji Yol Xəritəsi" təsdiq olunmuşdur. Bu sənəddə peşə təhsili və təlimi sektoru üzrə qısa, orta və uzunmüddətli strateji baxış müəyyən olunmuşdur. İndi başlıca vəzifələrdən biri Azərbaycanın peşə təhsili və təlimi sektorunda 2020-ci ilədək strateji baxışı ölkədə əmək bazarının tələblərinə cavab verən mühəndis-pedaqoji heyətə, yeniləşmiş təhsil proqramına və peşə standartlarına malik optimallaşdırılmış müəssisələrdən ibarət peşə təhsili və təlimi sisteminin formalaşdırılmasından ibarətdir. Bu sektorun 2025-ci ilədək dövr üçün uzunmüddətli strateji baxışı isə əmək bazarının tələblərinə cavab verən peşə standartları və təhsil proqramları (kurikulumlar) əsasında ixtisaslı iş qüvvəsi hazırlayan, hər bir sektor üzrə işəgötürənlərlə sıx əməkdaşlıq əlaqələrinin qurulduğu, funksional peşə təhsili və təlimi müəssisələrinə malik peşə təhsili sisteminin formalaşdırılmasıdır.

İlk peşə-ixtisas təhsili sistemində kadr hazırlığı, ixtisaslaşdırma və yenidən hazırlanma işi təkmilləşdirilməli, mühəndis-pedaqoji heyətin qiymətləndirilməsi yolu ilə onların maddi motivasiyası yaxşılaşdırılmalı, səriştə və nəticə əsaslı diferensiallaşdırılmış əmək haqqı sistemi, ilk peşə-ixtisas təhsili sisteminin ehtiyacları üçün əmək bazarı mütəmadi öyrənilməli və mütərəqqi təhsil formalarından istifadə etməklə fasiləsiz peşə təhsili sistemi yaradılmalıdır. İşəgötürənlərin kadr hazırlığına yaxından cəlbi üçün mümkün olan sahələrdə "dual" sistemin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Təhsil pillələri arasında əlaqələrin və varisliyin təminatı məqsədilə lazımi kreditləri toplamış məzunlara təhsillərini növbəti təhsil pilləsində davam etdirmək hüququnun tanınması, həmin təhsil müəssisələrində əmək bazarının, cəmiyyətin tələbatına uyğun təhsilin təmin edilməsi üçün çevik mexanizmlərinin tətbiqi, ilk peşə-ixtisas təhsilinin ictimai statusunun yüksəldilməsi ilə daha çox gəncin bu təhsil pilləsinə və özəl sektorun modullar üzrə kadr hazırlığına cəlb olunması vacibdir.

**Nəticə**

Apardığımız tədqiqatların nəticəsi göstərir ki, hələlik respublikamızda gənclər arasında işsizlik səviyyəsi xeyli yüksəkdir və onun azaldılması diqqət mərkəzində durmalıdır. Buna görə də hazırda ölkəmizin qarşısında duran başlıca vəzifələrdən biri gənclərin hərtərəfli bilik və bacarıqlara

malik olmasını təmin etmək üçün peşə təhsili infrastrukturunun əsaslı şəkildə müasirləşdirilməsi, peşə təhsilinə cəlb olunan gənclərin sayının artırılması; cəmiyyətin tələblərinə uyğun formada əsaslı təhsil standartları və kurikulumlarının hazırlanması və müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin yaradılması obyektiv zərurətə çevrilmişdir. Bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- Müasir tələblərə cavab verən dual təlim metodlarını əks etdirən peşə təhsili sistemi yaradılmalı;
- Gənclərin məşğulluğunun təmin edilməsində mühüm rol oynayan (əmək vərdişləri öyrədən) müasir tədris üsulu olan modul, habelə Almaniya, Yaponiya, Danimarka, Avstriya, İsveçrə və Lüksemburq kimi inkişaf etmiş ölkələrdə tətbiq edilən dual (ikili) tədris formalarından istifadə edilməli;
- Təhsil müəssisələrində elmin istiqamətləri və ixtisas qrupları üzrə hazırlanan və onları bitirən mütəxəssislərin sayı ilə iqtisadiyyatın quruluşu və ayrı-ayrı iqtisadi fəaliyyət növlərində mövcud olan və boş qalmış iş yerləri və peşələrin sayı arasında lazımım tarazlığın olmamasını nəzərə alaraq təhsil müəssisələrində kadr hazırlığı zamanı yeni texnika və texnologiyalara əsaslanan peşə və ixtisaslara; turizmin, aqrar sahənin, ticarət və ictimai iaşənin, informatika və rabitənin, habelə sənayenin mütərəqqi sahələrinin inkişafı ilə bağlı olan peşə və ixtisaslara xüsusi önəm verilməli;
- Gələcəkdə ölkəmizdə gənclərin məşğulluq səviyyəsinin yüksəldilməsi və onların əməyindən səmərəli istifadə edilməli; peşə hazırlığı keçmiş gənclərin daimi iş yerləri ilə; sərbəstləşmə təhlükəsi ilə üzləşə biləcək gənclərin isə işdən azad edilməsindən əvvəl əmək bazarında tələbat olan peşə və ixtisaslar üzrə yenidən hazırlıq keçirilməsinin təmin edilməli; kənd yerlərində yaşayan gənclərin şəhər yerlərinə və başqa ölkələrə axınının qarşısını almaq üçün sərhədyanı və digər rayonlarda yeni və müvafiq iş yerlərinin yaradılmalı və onların qorunması üçün lazımi şərait yaradılmalı; ordudan tərxis olunan gənclərin məşğulluğu təmin edilməli; onların peşə hazırlığı və yenidən hazırlıq işi gücləndirilməli; gənc sahibkarlara, fermerlərə və işsiz gənclərə dəstək verilməsi üçün rayon və şəhərlərdə biznes mərkəzləri şəbəkəsinin yaradılması üçün lazımi tədbirlər görülməli;
- Peşə və ixtisaslara olan tələbatın düzgün qiymətləndirilməsi və ümumtəhsil məktəblərində şagirdlərə peşələrə sahib olmaq marağı aşılanmalı;
- Peşə təhsili müəssisələrini səmərələşdirməklə mövcud müasir standartlara uyğun peşə tədris mərkəzləri və kompleksləri (Bakı şəhəri və regionlarda) yaradılmalı;
- İlk peşə-ixtisas səviyyəsi üzrə ixtisaslar üçün əmək bazarının müasir tələblərinə cavab verən peşə standartları, kurikulumlar və təlim materialları hazırlanmalı;
- Peşə tədris mərkəzləri ilə işə götürənlər arasında əməkdaşlığın təşviqi məqsədilə stimullaşdırıcı tədbirlər sistemi işlənib hazırlanmalı və həyata keçirilməlidir.

Bütün bunları ümumiləşdirsək belə yekun qənaətə gəlmək olar ki, gələcəkdə ölkəmizdə ilk peşə-ixtisas təhsili sistemində kadr hazırlığı, ixtisaslaşdırma və yenidən hazırlanma işi təkmilləşdirilməli, mühəndis-pedaqoji heyətin qiymətləndirilməsi yolu ilə onların maddi motivasiyası yaxşılaşdırılmalı, səriştə və nəticə əsaslı differensiallaşdırılmış əmək haqqı sistemi, ilk peşə-ixtisas təhsili sisteminin ehtiyacları üçün əmək bazarı mütəmadi öyrənilməli və mütərəqqi təhsil formalarından istifadə etməklə fasiləsiz peşə təhsili sistemi yaradılmalıdır. İşəgötürənlərin kadr hazırlığına yaxından cəlbi üçün mümkün olan sahələrdə "dual" sistemin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Təhsil pillələri arasında əlaqələrin və varisliyin təminatı məqsədilə lazımi kreditləri toplamış məzunlara təhsillərini növbəti təhsil pilləsində davam etdirmək hüququnun tanınması, həmin təhsil müəssisələrində əmək bazarının, cəmiyyətin tələbatına uyğun təhsilin təmin

edilməsi üçün çevik mexanizmlərinin tətbiqi, ilk peşə-ixtisas təhsilinin ictimai statusunun yüksəldilməsi ilə daha çox gəncin bu təhsil pilləsinə və özəl sektorun modullar üzrə kadr hazırlığına cəlb olunması məqsədəuyğun olardı.

## Ədəbiyyat

1. Əmək bazarı. Statistik məcmuə. Bakı, 2021. səh. 16, 22, 133
2. Əmək bazarı. Statistik məcmuə. Bakı, 2011. səh. 144
3. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı. 2021. səh. 108, 114.
4. Azərbaycanda qadınlar və kişilər. Statistik məcmuə. Bakı, 2021, səh. 51
5. Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə. Bakı, 2011, səh. 132, 155
6. “14” aprel 2017-ci il. www.azerbaijan-news.az

***Ф.Ш.Джафарова***

***Социально-демографические аспекты обеспечения эффективной занятости молодых трудовых ресурсов***

***Резюме***

*В статье проанализированы и оценены изменения, произошедшие в последние десять лет (2010-2020 годы) в Азербайджанской Республике по половозрастному составу, уровню занятости и безработицы молодежи (15-29 лет) и влияющие на них факторы. Даны предложения и рекомендации по социально-демографическим аспектам обеспечения их эффективной занятости в будущем.*

***Ключевые слова:*** *население, экономически активное население, экономически неактивное население, занятость, безработица, половозрастная структура населения, профессиональное образование, высшее образование, среднее специальное образование.*

***F.Sh.Jafarova***

***Socio-demographic aspects of ensuring effective employment of young labor resources***

***Summary***

*The article analyzes and evaluates the changes in the level of employment and unemployment of young people (aged 2010-2020) by gender-age composition in the Republic of Azerbaijan over the past ten years (15-29 years) and the factors affecting them. Proposals and recommendations on the socio-demographic aspects of ensuring their effective employment in the future are given.*

***Keywords:*** *population, economically active population, economically inactive population, employment, unemployment, gender-age structure of the population, vocational education, higher education, secondary*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.08.2022.***
***Çapa qəbul olunub: 17.08.2022.***